**"Qloballaşma və regional inteqrasiya" mövzusunda**
**Respublika elmi konfransına təqdim edilən tezislərin tərtib olunmasına tələblər**

Mingəçevir Dövlət Universiteti **"Qloballaşma və regional inteqrasiya"** mövzusunda Respublika elmi konfransı keçirir.

**Konfransın keçirilmə yeri və tarixi:** Mingəçevir Dövlət Universiteti, 23-24 dekabr 2016-cı il

**Konfransda qoyulan problemlər:**

1. *Qloballaşan dünya və müasir Azərbaycan.*
2. *Qloballaşma şəraitində sosial-mədəni inteqrasiya.*
3. *Qloballaşma və humanizm.*
4. *Qloballaşma və multikulturalizm.*
5. *Qloballaşma və yeni müstəqil dövlətlərin inteqrasiyasının konseptual əsasları.*
6. *Qloballaşma və türk sivilizasiyası: reallıqlar və və perspektivlər.*
7. *Qloballaşma şəraitində elmi-texniki potensialdan istifadə problemləri.*
8. *İKT – qloballaşma və inteqrasiya vasitəsi kimi.*
9. *Qloballaşma şəraitində intellektual miqrasiya.*
10. *Qloballaşmanın ekoloji aspektləri inteqrasiyanın zəruri aləti kimi.*
11. *Qloballaşma prosesində regional inteqrasiyanın rolu, onun iqtisadi və innovasiyalı inkişafa təsiri.*
12. *Qloballaşma dövründə maliyyə stabilliyinin təmin edilməsi yolları və mexanizmləri.*
13. *Qloballaşma şəraitində texnoparkların mühüm rolunu şərtləndirən amillər.*
14. *İnteqrasiya prosesində turizmin qlobal aspektləri və funksiyaları.*
15. *Qloballaşma şəraitində ərzaq və qida təhlükəsizliyinin təminatı inteqrasiya mexanizmi kimi.*

Konfransda ali təhsil müəssisələrinin professor-müəllim heyəti, doktorant, dissertantlar, elmi tədqiqat müəssisələrinin elmi işçiləri iştirak edə bilərlər.

**TEZİSLƏRIN TƏRTİB OLUNMA QAYDALARI:**

**Təqdim olunan tezislər aşağıdakı tələblərə uyğun olaraq tərtib edilir:**

- rubrikatora uyğun Universal Onluq Təsnifatı (UOT) indeksləri qoyulmaqla tezislər Azərbaycan, rus və ingilis dillərində (1 nüsxədə və elektron variantda) təqdim olunur;
- mətn Microsoft Word formatında Times New Roman şriftilə (hərflərin ölçüsü -13, interval-1.5, soldan 3 sm, sağdan 1 sm, yuxarı və aşağı 2 sm olmaqla) yığılır, A4 formatlı standart (210x297mm) kağızda çap olunur;
- tezisin mətni 3-4 səhifə həcmində olmalıdır;
- mətnin əvvəlində tezisin adı, altında tezisçinin elmi dərəcəsi, elmi adı, soyadı, adı və atasının adı (tam açıq şəkildə), onun altında isə tezisçinin işlədiyi və ya təhsil aldığı müəssisənin adı, əlaqə nömrəsi (təşkilati komitə üçün) yazılmalıdır (bax Nümunə 1):
- ədəbiyyat siyahısı mətnin sonunda əlifba sırası ilə və AAK-in tələblərinə uyğun göstərilir (istinad olunan ədəbiyyatın nömrəsi mətnin içərisində göstərilir: məsələn, [2]).

Tezis göndərildikdən sonra müvafiq bölmələrə təqdim ediləcək və konfrans materiallarına daxil edilməsi barədə bölmələr tərəfindən məqsədəuyğunluğu qiymətləndiriləcəkdir. Zərurət yarandıqda bölmələrin müəyyən iradlarının nəzərə alınaraq tezislər üzərində düzəlişlərin edilərək təkrar göndərilməsi nəzərdə tutulur. Bölmənin iradları qəbul edilmədikdə və düzəliş olunub vaxtında göndərilmədikdə tezislər qeyri-məqbul kimi qiymətləndiriləcək və konfrans materiallarına daxil edilməyəcəkdir.

Bölmələrə təqdim edilmiş tezislər geri qaytarılmır.

Tezislər 10 dekabr 2016-cı il tarixdən gec olmayaraq aşağıdakı göstərilən ünvanlara göndərilməlidir.

Konfransın materialları çap olunacaqdır.

**Ünvan: Mingəçevir Dövlət Universiteti**
**Az4500, Mingəçevir şəhəri, D.Əliyeva küçəsi 21**
**Məsul katib: Rəsulov Zaur Yusif oğlu**
**Əlaqə telefonu: (+99450) 635-18-11**
**Elektron ünvan: konfrans@mdu.edu.az**

Nümunə 1.

UOT ________

**Tezisin adı**

*elmi dərəcəsi, elmi adı, Soyadı Adı Atasının adı (tam açıq şəkildə)*
*tezisçinin işlədiyi və ya təhsil aldığı (doktorant və dissertantlar üçün) müəssisənin adı*
*Əlaqə nömrəsi*

Əsas mətn [2].

**Ədəbiyyat**

1. .....
2. .....
3. .....